6-7 YAŞ

MƏNİM İLK KİTABIM



# XOŞBƏXT ARI

altun kitab

84(5Aze)
У 94





Mən böyük şəhərdə yaşayan balaca bir arıyam. Anam deyir ki, mənim çox qəşəng iri gözlərim, incə belim və sarı-qara zolaqlarım var. Mən gül-çiçəyi bir-birindən ayırmağı bacarıram. Onların şirələrini yığmağı, bal düzəltməyi də artıq öyrənmişəm.

Güzgüdə özümə sığal verəndən sonra qanadlarımı çırpıb evdən uçuram. Arılar vızıldaşıb ardımca deyirlər: “Yaxşı yol!”

Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 78294





Mənim şəhərim çox gözəldir. Adamlar burada çoxlu parklar salmışlar. Parklarda isə yaşıllıq, gül-çiçək bol olur. Anasının əlindən tutub gedən bu balaca oğlana bax! Vızıldıyıb yanından keçirəm, o qorxub anasına qısılır. Amma nahaq yerə.

Mən ki onunla dost olmaq istəyirəm. Uşaqlar balı xoşlayırlar, amma arıları sevmirlər. Fikirləşmirlər ki, balı düzəldən biz arılarıq.

Görəsən, niyə belədir?









Əlində iri, qırmızı qızılgül olan qızcığaz skamyada oturub. Gülün ləçəyinə qonub dincəlirəm. Ətri məni bihuş edir. Tez ləçəklərin arasına girib gülün şirəsini çəkirəm.

Qız əli ilə məni qovub uzaqlaşdırır. Salamat qal, ay qız! Sənin gülünün şirəsindən düzəltdiyimiz bal ətirli olacaq!







Açıq pəncərədən mənzillərin birinə daxil oluram.

Stolun arxasında oturub şirniyyat yeyən şişman oğlan məni görüncə qışqırır. Anası qaça-qaça otağa gəlir, əlindəki dəsmalla məni qovmağa başlayır. Otaq boyu sürətlə uçuram, o isə dalımca qaçır. “Şapp!” Dəsmal yanımdan keçib şappıltı ilə televizora dəyir. “Bəxtim gətirdi!” Oğlanın qarşısına keçib vızıldayıram. Gözlərini çəpləşdirib mənə baxaraq qışqırır. Aləmin bir-birinə qarışdığını görüb aradan çıxıram.







Sürahiyə qoyulmuş gözəl bir dibçək gülü diqqətimi cəlb edir. Gülün üstünə qonub şirəsini çəkməyə başlayıram. Balaca bir qız əlindəki qabdan gülün dibinə su tökür. Sonra mənə baxıb gülümsəyir. "Onların şirəsi dadlıdırmı?" – deyə soruşur. İşimi bitirəndən sonra vızıldayaraq ona təşəkkür eləyir və uzaqlaşıram. Qız əli ilə mənə "sağ ol" eləyir. Mənim arı həyatım nə qədər gözəldir!

Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 78294





Sürahiyə qoyulmuş gözəl bir dibçək gülü diqqətimi cəlb edir. Gülün üstünə qonub şirəsini çəkməyə başlayıram. Balaca bir qız əlindəki qabdan gülün dibinə su tökür. Sonra mənə baxıb gülümsəyir. "Onların şirəsi dadlıdırmı?" – deyə soruşur. İşimi bitirəndən sonra vızıldayaraq ona təşəkkür eləyir və uzaqlaşıram. Qız əli ilə mənə "sağ ol" eləyir. Mənim arı həyatım nə qədər gözəldir!

Azərbaycan Dövlət Uşaq
KITABXANASI
İNV. № 78294



*Reyhan Yusifqızı*

# XOŞBƏXT ARI

Rəssamlar Elçin Cabbarov
Şəlalə Rüstəmova

MƏNİM İLK KİTABIM
seriyasından olan kitablar
**3-7 yaşlı uşaqlar**
üçün nəzərdə tutulmuşdur.



© Altun Kitab
www.altun-kitab.com

ISBN 978-9952-24-140-2

1.00 AZN